# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 211/3** **26 avqust 2010-cu il**

**«Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətlərinin, onların apardıqları auditlərin keyfiyyətinin audit standartlarına və mövcud qanunvericilik aktlarına uyğunluğunun yoxlanılmasına dair nümunəvi hesabat formasının tərtib edilməsi barədə Qayda»nın təsdiq edilməsi barədə**

«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa, «Azərbaycan Respublikası Auditorlar Palatası haqqında» Əsasnaməyə uyğun olaraq, və qüvvədə olan digər qanunvericilik aktlarının tələblərinin həyata keçirilməsi, auditor xidmətinin keyfiyyətinə və Auditorlar Palatasının üzvləri olan sərbəst auditorların və auditor təşkilatlarının (bundan sonra «Auditorlar» adlandırılacaq) peşə etikasına riayət etmək üzrə nəzarət sisteminin yaradılması məqsədi ilə işlənib hazırlanmış «Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətlərinin, onların apardıqları auditlərin keyfiyyətinin audit standartlarına və mövcud qanunvericilik aktlarına uyğunluğunun yoxlanılmasına dair nümunəvi hesabat formasının tərtib edilməsi barədə Qayda»nı müzakirə edərək Auditorlar Palatası Şurası

**Q Ə R A R A A L I R :**

1. «Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətlərinin, onların apardıqları auditlərin keyfiyyətinin audit standartlarına və mövcud qanunvericilik aktlarına uyğunluğunun yoxlanılmasına dair nümunəvi hesabat formasının tərtib edilməsi barədə Qayda» təsdiq edilsin (əlavə olunur).
2. ASİDS 17/60-2001 Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2001-ci il 20 aprel tarixli 74/5 saylı qərarı ilə təsdiq edilmiş «Auditor təşkilatının (və ya sərbəst auditorların) fəaliyyətlərinin, apardıqları auditlərin keyfiyyətinin audit standartlarına və mövcud qanunvericilik aktlarına uyğunluğunun yoxlanılmasına dair nümunəvi akt formasının tərtib edilməsi Qaydası» öz qüvvəsini itirmiş hesab edilsin.
3. Bu qərar və «Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətlərinin, onların apardıqları auditlərin keyfiyyətinin audit standartlarına və mövcud qanunvericilik aktlarına uyğunluğunun yoxlanılmasına dair nümunəvi hesabat formasının tərtib edilməsi barədə Qayda» Auditorlar Palatasının internet saytında yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**